# Bəhram Osmanov: "Bu təkcə mənim uğurum deyil, Azərbaycan rejissurasının uğurudur"




■ Xəyalə Rəis
teatrşünas




Dövlət Gənc Tamaşaçılar Teatrının baş rejissoru, Azərbaycan və Kalmıkiya Respublikalarının Əməkdar İncəsənət Xadimi Bəhram Osmanov yaradıcılıq ezamiyyətində olduğu Kalmıkiyadan əlidolu qayıdıb. Belə ki, rejissor cari ilin noyabr ayında hazırlıqlarına start verilən yeni tamaşanı geniş ictimaiyyətə təqdim edərək, iki mükafatla Vətənə dönüb.

B.Osmanov bu ölkədə Kalmıkiyanın görkəmli yazıçısı Sandji Balıkovun "Zalamca" povestinin motivləri əsasında Azərbaycanın Əməkdar incəsənət xadimi, yazıçı-dramaturq Əli Əmirlinin qələmə aldığı "Gözlə məni" ("Dojdisğ menə") pyesini səhnəyə qoyub.

Rejissor vətənə dönər-dönməz təəssüratlarını xəbər almağı özümüzə borc bildik. Eksklüziv olaraq orada yaşanan hadisələri bizə danışan rejissor növbəti ilə olan planlarından da danışdı.

**- Bəhram müəllim, ilk olaraq növbəti uğurunuza görə təbrik edir, sizə daha böyük nailiyyətlər arzulayırıq.**

- Təşəkkür edirəm. Hər zaman var olasınız.

**- İstərdik səfər barədə təəssüratlarınızı eşidək.**

- Səfər barədə təəssüratlarım çox zəngindir. Belə ki, Kalmıkiya teatrı ilə uzun müddətli müqaviləmiz var. Həmin teatrın rəhbərliyi ötən il onların teatrında tamaşa hazırlamağımı təklif etmişdi. Mən də məmnuniyyətlə qəbul etmişdim. Artıq onu icra etmək zamanı idi. Bu işdə mənə görkəmli dramaturqumuz Əli Əmirli də çox böyük kömək etdi. Sandji Balıkovun məşhur hekayəsinin motivləri əsasında səhnə əsəri işlənildi və bura başqa süjetlər də əlavə olundu. Teatrın rəhbəri əsərin "Gözlə məni" adı ilə hazırlanmasına razılıq verdi. Bu tamaşanın digər ölkənin rejissoru tərəfindən hazırlanması onlar üçün daha məqsədə uyğun idi. Bir ilə yaxındır ki, bunun səhnə variantının işlənilməsi və yekunda da tamaşanın hazırlanması ilə məşğulam. İlk tamaşa 16 dekabrda təqdim olundu.

**- Tamaşaçılar onu necə qəbul etdilər?**

- Mən özümü təriflləmək istəmirəm. Bu hisslərdən bir qədər uzağam. Bu barədə xarici mətbuatdan məlumat əldə etsəniz daha yaxşı olar.

**- Bizim yerli rejissorlarımızın xarici teatrlarda tamaşa hazırlaması əslində Azərbaycan teatrının da uğurundan xəbər verir.**

- Əlbəttə, bu təkcə mənim uğurum deyil, Azərbaycan rejissurasının uğurudur. Həmin tamaşanın premyerasında Monqolustanın, Çin Xalq Respublikasının, Moskvadakı Birinci Andrey Pervozvannı Fondunun nümayəndələri iştirak edirdilər. Bu tamaşanın nümayişi onlar üçün sanki bir sənət bayramı idi. Qeyd edim ki, sözügedən tamaşada çox məşhur aktyorlar iştirak edirdilər.

**- Onlar kimlər idi? İstərdik həm də əsərin mövzusu barədə bizi məlumatlandırasınız.**

- Tamaşanın bəstəkarı Kalmıkiya Respublikasının Əməkdar İncəsənət Xadimi Arkadi Mandjiyev, rəssamı Yelena Varovadır. Tamaşada Respublikasının Əməkdar Artisti Vyaçeslav Xurqunov, Tamara Paltınova,









Sandji Pursyakov, Marina Kikeyeva, Badma Püryeyev, Tatyana Zarayeva, aktyorlar Elza Bembeyeva, Yuliya Mudjiyeva, Baira Mandjiyeva, Oçir Erdneyev, Erencer Aveşkiyev, Burça Orqadıkov iştirak edirdilər. Tamaşa məhəbbət və ayrılıq, ümid və gözləntilər haqqındadır. Tamaşada Birinci Dünya müharibəsi, inqilab və vətəndaş müharibəsi fonunda iki sevən qəlbin "tale dramı" canlanır. Varlı sahibkarın ərköyün qızı Zalamca ilə sadə kənd müəllimi Danzan Nostinovun məhəbbətindən bəhs edən, onların çətin sınaqlara məruz qalan həyatlarını əks etdirən bir tamaşadır. Tamaşanın premyerası 16 və 17 dekabr tarixlərində baş tutdu. Mənim üçün orada ən çox maraqlı olan bu oldu ki, rejissorluqla məşğul olduğum bu illər ərzində müasir texnologiyadan geninə-boluna istifadə etdim. Daha çox səhnə plastikasına üstünlük verdim. Obrazlarda mətnlərdən çox, plastik hərəkətlərdən, simvollardan istifadə etdim. Çünki tamaşaçı məndən bunu tələb edirdi.

**- Əldə etdiyimiz məlumata görə siz tamaşanın səhnə həllinə görə iki medalla təltif olunmusunuz.**

- Elədir. "Kalmıkiya kazaklarının 25 illik yubileyi" və "Qallipoli" medalları 1992-ci ildə yaradılmış və qərargahı Moskvada olan ictimai təşkilat - Andrey Pervozvannı adına Fond tərəfindən təqdim olunub. Bu Fond bir sıra mədəniyyət layihə və proqramları həyata keçirməklə Rusiyanın mədəni əsaslarının qorunması məqsədinə xidmət edir. Mükafatı mənə tamaşadan sonra təqdim etdilər. Bu mükafat onlar üçün çox böyük önəm daşıyır. Əslində bu mükafata layiq görüləcəyimi mən gözləmirdim.

**- Baş rejissoru olduğunuz teatrın Kalmıkiya ilə layihələrindən uzun müddətdir ki, xəbərdarıq. Bir ay bundan əvvəl teatrın yaradıcı heyətinin bir neçə üzvünə Kalmıkiyanın Əməkdar artisti adı və digər nominasiyalar üzrə mükafatlar verildi. Bu hadisə bizim teatr camesində heç də birmənalı qarşılanmadı. Bunun o qədər də əhəmiyyətli bir şey olmadığını da dilə gətirənlər oldu.**

- Hələ ki, səfərdən yeni dönmüşəm. Deyilənlər haqqında məlumatsızam. Kim nə deyir, desin, Hərənin bir subyektiv fikri var. Rusiya 84 federasiyadan ibarətdir. Bu 84 federasiyanın cəmi 12-sinin fəxri ad təsis etmək, vermək səlahiyyəti var. Bu namizədlər Rusiya Federasiyası tərəfindən çox ciddi şəkildə yoxlanılır, bütün dövlət orqanlarından keçir. Bizdən fərqli olaraq orada yoxlamalar digər nazirliklər tərəfindən də həyata keçirilir. Əgər həmin idarənin dövlətə borcu varsa, həmin insana fəxri ad verilmir. Bu çox çətin bir prosesdir. Orada fəxri ad almaq üçün müəyyən titullar əldə etməlisən. Həmin ölkənin Teatr İttifaqının fəxri diplomuna layiq görülməli, 3 ildən sonra həmin ölkənin mədəniyyət nazirinin fəxri diplomuna layiq görülməli, bir neçə müddət keçəndən sonra həmin ölkənin Milli Məclisinin diplomuna layiq görülməlisən. Həmin diplomlar təqdim olunandan iki il sonra əgər sənətdə uğurun varsa sən digər mükafatlara layiq görülə bilərsən. Biz xarici vətəndaş olduğumuz üçün bizdə bu, iki aya başa gəlir. Fəxri ad alacaq olan əcnəbi aktyorun istər ölkəsində, istər digər ölkələrdə, festivallarda aldığı mükafatlar, uğurlar yoxlanılır, ondan sonra bu proses baş verir. Mən çox sevinirəm ki, bu təkcə bizim teatrın yaradıcı heyətinə verilən qiymət deyil, Azərbaycan teatr sənətinə verilən qiymətdir. 5 ilə yaxın müddətdə Gənc Tamaşaçılar Teatrı Rusiya Federasiyasında olan festivalların ən mükəmməlləri içərisində sənət əsərləri göstərib. Bunun mahiyyəti indi də bilinməsə, 5-10 ildən sonra mütləq bilinəcək. Bütün dünya Rusiyanı teatr sənətinin Məkkəsi adlandırır. Bizim teatrın yaradıcı heyətinin belə bir ada layiq görülməsinə görə onlar sevinməlidir ki, nəinki məyus olmalı. Bu məsələyə bizim heç bir həmkarmızın ironiya ilə yanaşmağa haqqı yoxdur.

**- Gənc Tamaşaçılar Teatrı il ərzində ən çox festivallarda iştirak edən teatrlar sırasındadır. Diqqətimi çəkən əsas məqam odur ki, beynəlxalq müsabiqələrdə daha çox xarici dramaturqların əsərləri ilə çıxış edirsiniz. Bunun səbəbi nədir?**

- Bir ildə 15-20 festivala dəvət alırıq. Sadəcə olaraq onlar arasında seçim edirik. Daha çox teatr sənəti üzrə A kateqoriyalılara üstünlük veririk. Orada oynadığımız əsərlərin bir çoxu xarici ölkə dramaturqlarının tamaşaları olsa da bu, dəvət edilən təşkilatın, dövlətin səlahiyyətindən asılıdır. Hər bir festivalın öz ekspert şurası var. Onlar bizim göndərdiyimiz tamaşalara baxırlar və biz onların istəyi ilə həmin tamaşaları festivala aparırıq. Mən Akademik Milli Dram Teatrında işlədiyim zamanlarda da görmüşəm ki, beynəlxalq festivallarda həmin festivalların ekspertləri deyirdilər ki, mən bu tamaşanı istəyirəm, əgər gətirmirsənsə, iştirak etmə. 12 il əvvəl mən bunun şahidi olmuşam. Bu görülən işlərin bəhrəsidir. Əvəzində Azərbaycan sənət adamları, teatrı təbliğ olunur. Bu gün Rusiya Federasiyasında Azərbaycan Respublikasının teatrı deyiləndə Gənc Tamaşaçılar Teatrı nəzərdə tutulur. Bu tərif deyil, həqiqətdir. Bizə bu işdə Mədəniyyət və Turizm naziri də böyük dəstək göstərir.

**- Çox zaman həmin festivallardan sonra sorağınızı xarici KİV-lərdən alırıq. Təbii ki, Azərbaycan vətəndaşı olaraq bu bizdə xoş təəssüratlar oyadır.**

- Artıq tamaşalarımız da məlumdur, bir sıra dəvətlər də almışıq. Teatrımızın tamaşaları haqqında əcnəbi teatrşünaslar resenziyalar yazıblar. Festivallarda qeyd olunurdu ki, Azərbaycan teatrı bu festivalın bəzəyidir. Festivala uğur gətirən səhnə əsəri yaradıb. Hər dəfə bu sözləri eşidəndə biz fəxr edirik. Çünki bizim sənət qiymətləndirilir. Bu bizim sənətin təbliğidir. Bunu sevinmək lazımdır.

**- 2016-cı ili yola salmağa sayılı günlər qalıb. Geridə qoyacağımız bu ili sizin üçün məhsuldar hesab etmək olarmı?**

- Əlbəttə. Bu il teatrımız üçün çox uğurlu il oldu. Teatra Mədəniyyət və Turizm Nazirliyi tərəfindən verilən tapşırıqlar, tamaşalar planını yerinə yetirmişik. Onların içərisində uğurlusu da var, orta səviyyədə olanı da. Bu təbiidir. Teatr canlı sənətdir. Burada kimsə uğursuzluqdan yaxa qurtara bilməz.

**- Növbəti ildən nələr gözləyirsiniz?**

- Növbəti il uzun müddətdir ki, düşündüyüm bir əsərin məşqinə başlayacam, mart ayında həmin tamaşanı təhvil verəcəm. Yanvarın 20-də Əli Əmirlinin "İmansız qatar" əsəri üzərində məşqlərə başlayacam. Bir neçə festivala dəvətliyik. Mart ayında bunu reallaşdıracağıq. Uşaqlar üçün maraqlı tamaşalarımız olacaq.

